# MÜNDƏRİCAT

I FƏSİL. "Prometey" Parisdən uçur .................................... 6
II FƏSİL. "Madam, sizin hesabınız…" ................................ 17
III FƏSİL. Kroydon ....................................................... 23
IV FƏSİL. Təhqiqat ....................................................... 43
V FƏSİL. İstintaqdan sonra ............................................ 56
VI FƏSİL. Metr Tibo bəzi məlumatlar verir ......................... 66
VII FƏSİL. Ehtimallar və imkanlar ...................................... 72
VIII FƏSİL. Siyahı ......................................................... 85
IX FƏSİL. Eliza Qrandye .................................................. 92
X FƏSİL. Qara qeyd kitabçası ........................................... 100
XI FƏSİL. Amerikalı ........................................................ 110
XII FƏSİL. Xorbarinin malikanəsində .................................. 126
XIII FƏSİL. Müsyö Antuanın yanında ................................. 135
XIV FƏSİL. Myuzvell–Xilldə ............................................. 147
XV FƏSİL. Blumsbari. Kardinqton-Skver, 47 ........................ 154
XVI FƏSİL. Müsyö Puaro yeni plan qurur ............................ 166
XVII FƏSİL. Vendsvorsda ................................................ 175
XVIII FƏSİL. Kraliça Viktoriya küçəsində ............................ 180
XIX FƏSİL. Mister Robinsonun gəlişi ................................. 184
XX FƏSİL. Xerli-stritdə .................................................... 195
XXI FƏSİL. Üç açar ......................................................... 199
XXII FƏSİL. Ceyn başqa işə keçir ...................................... 205
XXIII FƏSİL. Anna Moriso ................................................ 214
XXIV FƏSİL. Qopmuş dırnaq ............................................. 224
XXV FƏSİL. "Qorxuram ki…" ............................................. 228
XXVI FƏSİL. Nahardan sonrakı söhbət ................................ 237

# I FƏSİL

# "Prometey" Parisdən uçur

Sentyabr günəşi Le Burje aerodromunun üzərində rəhmsizcəsinə yandırıb yaxırdı. İstidən tamamən təntimiş sərnişinlər tənbəlcəsinə uçuş meydanını keçərək, yırğalanan trapla, bir neçə dəqiqədən sonra Paris-London (Kroydon təyyarə meydanı) marşrutu ilə uçacaq təyyarəyə qalxırdılar.

Ceyn Qrey axırda gələn sərnişinlərlə birlikdə təyyarəyə mindi və çətinlik çəkmədən öz yerini taparaq, 16 nömrəli kresloya əyləşdi. Bir neçə adam ondan əvvəl salona gəlmişdi. Onlardan bəziləri hətta yerlərini rahatlamışdılar. Keçidin digər tərəfində qızğın söhbət gedirdi. İki qadın söhbət edirdi, onlardan birinin elə qulaqbatırıcı səsi vardı ki, hətta Ceyn sifətini yüngülcə turşutdu.

– Mənim əzizim… tamamilə inandırıcı deyil. Başa düşə bilmirəm… Harda?.. Siz nə danışırsınız?! Juan Le Pin? Ah, hə! Le Pin? Elə həmin adamlardır… Yox-yox, əlbəttə, gəl yanaşı əyləşək. Məgər olmaz?.. Kim?.. Aa, görürəm…

Dərhal da hansısa əcnəbinin nəzakətli və xoş səsi eşidildi:

– Hə-hə, buyurun, madam, böyük məmnuniyyətlə!

Ceyn oğrun-oğrun danışan adama baxdı.

Bədənli, enlikürək, uzun bığları və yumurtaya oxşar başı olan yaşlı adam öz yerini qadınlardan birinə verərək keçidin əks tərəfindəki kresloya əyləşdi.

Ceyn yüngülcə döndü və gözlənilməz qarşılaşmaları əcnəbinin bunca nəzakətli hərəkətinə səbəb olan həmin iki qadını gördü. Le Pinin adının xatırladılması onda maraq oyatdı, o da lap təzəlikcə orda olmuşdu. Ceyn birdən qulaqbatıran səsi olan bu qadını harda gördüyünü xatırladı – onu oyun masasının arxasında görmüşdü. Amma onda bu qadın həyəcan içində barmaqlarını yumur və açır, onun Drezden çinisindən düzəldilmiş oyuncaqlara oxşayan nazik sifəti gah ağarır, gah da alışıb yanırdı. Ceyn çətinlik çəkmədən bu qadının adını yadına sala biləcəyini düşündü. O zaman rəfiqəsi bu qadının adını ona deyərək əlavə eləmişdi: "O hərçənd ledidir, amma əsl ledi deyil. Deyəsən, nə vaxtsa xorda oxuyub…". Tanışının səsində aşkarca bir istehza sezilirdi. Ceynin rəfiqəsinin adı Meyzi idi, onun gözəl işi var idi, masajçı idi, öz müştərilərini hədsiz köklükdən xilas edirdi.

"Amma o birisi, – Ceyn düşündü, – əlbəttə, əsl ledidir. Lakin at sifətdir…".

Ceyn az qala dərhal bu iki qadının varlığını unutdu və Le Burje təyyarə meydanını nəzərdən keçirməyə başladı. Pəncərədən çox gözəl təyyarə meydanı bütünlüklə görünürdü. Ən müxtəlif təyyarələr yanaşı dayanmışdılar. Təyyarələrdən biri heyrətamiz dərəcədə çoxmərtəbəli evə oxşayırdı…

Ceynin önündəki kresloya tünd mavi rəngli toxunma yun köynək geymiş cavan oğlan əyləşdi.

Gənc oğlanla göz-gözə gəlməmək üçün o özünü köynəkdən yuxarıya baxmamağa məcbur edirdi.

Mexaniklər fransızca bir-birlərini səslədilər, trapı yığışdırdılar, mühərriklər şiddətlə uğuldamağa başladı və nəhayət, təyyarə start götürdü.

Ceyn nəfəsini tutdu: həyatında ikinci dəfəydi uçurdu və çox həyəcanlanmışdı. Təyyarə irəli şığıyırdı, ona elə gəlirdi ki, onlar hava limanının hasarını vurub keçəcəklər. Amma daha bir neçə an keçdi və onlar artıq havada idilər. Təyyarə dövrə vuraraq havalanırdı, Le Burje artıq çox aşağıda qalırdı və bir azdan aerodrom güclə görünürdü.

Təyyarə adi gündəlik reysini həyata keçirirdi. Adam elə də çox deyildi: cəmi iyirmi bir sərnişin var idi. On nəfər birinci, on bir nəfər isə ikinci salondaydı. Birinci və ikinci pilotlar, iki nəfər də stüard. Sərnişin salonlarında motorların səsi elə məharətlə azaldılmışdı ki, hətta qulaqları pambıqla tıxamaq da lazım gəlmirdi. Amma hər halda danışmaq çətin idi və yalnız bir şey qalırdı – düşünmək. La-Manş boğazına doğru istiqamət götürən "Prometey" Fransanın üzərində uğuldayırdı və hər bir sərnişin öz aləmində xəyallara dalmışdı.

Ceyn Qrey qəti qərara almışdı: "Heç bir halda ona baxmayacağam!.. Baxmayacağam! Olmaz. Yaxşısı, pəncərədən baxmaq və düşünməkdir. Bu ən doğrusudur. Hər şeyi başlanğıcdan xatırlayacaq və sakitləşəcəyəm".

Fikrində başlanğıc adlandırdığı – səfər üçün bilet aldığı o günə qayıtdı. Bilet çox bahaydı, amma bu, fərəhli idi.

Ceynin və onun kimi beş gənc qızın işlədiyi bərbər salonunu gülüş və qızğın səs-küy başına götürmüşdü.

– Əzizim, əgər sən udsaydın, neylərdin?

– Demək çətindir… Planlar, arzular, idman…

O, "Böyük priz"i almadı, amma düz yüz funt uddu!

– Yarısını xərclə, digər yarısını isə saxla. Heç vaxt nələr baş verəcəyini təxmin edə bilməzsən.

– Ceyn, sənin yerinə olsaydım, yaxşı xəz kürk almağa üstünlük verərdim! Bəs dəniz səfərinə çıxmağa nə deyirsən?

Dəniz səfərini düşünəndə Ceynin ürəyi titrəyirdi. Nəhayət, qəti olaraq bu variantın üzərində dayandı: Le Pində bir həftə keçirəcək.

Onun rəfiqələrindən çoxu artıq Le Pində olmuşdular və ya ora getməyə hazırlaşırdılar… Ceyn özünün həssas, ağıllı barmaqları ilə müştərisinin bir dəstə saçını ayırır, bölür, onları darayır və adi suallarını verirdi:

"Madam, siz nə vaxtdan saçınızı belə yığdırmayıbsınız?", "Madam, nəyə görə sizin saçınız eyni rəngdə deyil?", "Madam, gözəl yaydır, eləmi?" – və düşünürdü:

"Bəs mən niyə Le Pinə getməyim?"

İndi o, yüz funt udandan sonra bu səyahəti özünə rəva bilmişdi.

Paltar onun üçün problem deyildi. Ceyn və əksər London qızları elə yerdə işləyirdilər ki, demək olar, hamısı yaxşı geyinməyi bacarırdılar; o, çox az pul xərcləyərək şıq və dəblə geyinə bilirdi. Dırnaqları, bəzək əşyaları və saçı isə həmişə gözəl olurdu.

Beləcə, Ceyn Le Pinə yola düşdü… Amma doğrudanmı, bütün bu səfər yalnız o yeganə görüşə görəydi? Ruletka oyunu baş verən həmin görüşə görə. Axşamlar Ceyn kiçik məbləğ qoyaraq oynayırdı və heç vaxt bundan artıq məbləğlə oynamamağı qəti qərara almışdı. Amma lap əvvəldə Ceynin bəxti heç cür gətirmirdi. Artıq dördüncü axşamdı ki, oynayırdı. Bu, onun qumara qoyduğu axırıncı pul idi.

Ceyn pulu rəngli şarlara qoymuşdu. O az udur, çox uduzurdu. İndisə pulu əlində sıxaraq gözləyirdi.

Daha iki boş nömrə qalırdı – beşinci və altıncı. Bu nömrələrdən birinə pul qoysunmu? Əgər qoyacaqdısa, hansına? Beşinciyə, ya altıncıya? Nə bilmək olar?

Beşinci çevrildi. Şar buraxıldı. Ceyn əlini uzatdı: altıncıya gediş edəcəkdi.

Ceyn tam zamanında gediş etdi. O və qarşısındakı oyunçu eyni vaxtda mərc qoydular: Ceyn altı rəqəmini seçdi, o isə beş.

– *Rien ne va plus,*[1] – kartları paylayan xidmətçi dedi. Kürəcik fırlandı və donub qaldı.

– *Numero cinq, rouge, impair, manque.*[2]

Ceyn pərtçilikdən az qala qışqıracaqdı. Xidmətçi qoyulan pulları götürdü və pulu ona verdi. Qarşısında oturan oyunçu Ceyndən soruşdu:

– Nəyə görə öz uduşunuzu götürmürsünüz?

– Amma mən altıya gediş eləmişdim.

– Heç də elə deyil. Mən altıya, siz isə beşə pul qoymuşdunuz.

O tamamilə cazibədar birisiydi: ağ dişləri, qarabuğdayı sifəti, mavi gözləri, qısa qıvrım saçları var idi.

Ceyn inamsız halda uduşu götürdü. Səhv deyildi ki? O, inana bilmirdi.

Doğrudanmı, o təsadüfən beşə pul qoymuşdu? Ceyn inamsızlıqla naməlum adama baxdı. Cavabında isə cavan oğlan yenidən gülümsədi.

– Hər şey düzdür, – oğlan onun vəziyyətini başa düşərək ruhlandırmaq üçün dedi. – Pullarınızı masanın üzərində

---

[1] *Boş şeydir, yaxşı olacaq, – (fr.)*

[2] *Beş nömrə, qırmızı, qəribədir, yoxdur, – (fr.)*

qoyarsınızsa, onları kimsə götürər, ümumiyyətlə, onlara heç bir adiyyatı olmayan kimsə! Axı bu aydındır.

Bundan dərhal sonra o gülümsəyərək təzim etdi və çıxıb getdi. Bu, onun tərəfindən son dərəcə nəzakətli bir hərəkət idi. Çünki başqa cür olsaydı, Ceyn düşünə bilərdi ki, o öz uduşunu onunla tanışlıq əlaqəsi yaratmaq naminə güzəştə gedib. Amma onun gerçəkdən də alicənab və nəzakətli birisi olduğu məlum oldu… İndi budur, təyyarədə bu adamın yeri onun qabağındakı kresloda idi!

Yeri gəlmişkən, artıq bütün pullar xərclənmişdi, Parisdəki axırıncı iki gün hiss olunmadan keçdi (ah, təəssüflər olsun ki, axırıncı günlər idi!), indi isə evə qayıtmaq vaxtıydı.

Bəs sonra?

"Sonra nə olacağını düşünüb tapmaq lazımdırmı, – Ceyn özünü saxladı, – nəyə görə əbəs yerə həyəcanlanmalıyam?"

Bir-biri ilə söhbət edən qadınların söhbətləri kəsilmişdi.

"Drezden çinisi"ni xatırladan qadın hirslənmiş halda qopmuş dırnağına baxırdı. Düyməni basdı və qar kimi ağappaq geyinmiş stüard onun qarşısında dayananda dedi:

– Xidmətçimi yanıma göndərin. O, ikinci salondadır.

– Oldu, miledi.

Nəzərə çarpacaq dərəcədə cəld və öz işini bilən stüard çıxıb getdi.

Dərhal qarasaçlı, qara, sadə don geymiş gənc fransız qız gəldi. O, içində qiymətli zinət əşyaları olan mücrünü gətirmişdi. Ledi Xorbari fransızca qıza əmr etdi:

– Madlen, qırmızı Mərakeş mücrüsünü mənə verin.

Xidmətçi təyyarənin quyruq tərəfinə, yeşiklərin və qutuların yığıldığı baqaja getdi. Tezliklə qız balaca mücrü ilə

qayıdıb gəldi. Siseli Xorbari mücrünü ondan aldı və xidmətçisini buraxdı:

– Yaxşı, Madlen, bu, məndə qalacaq. İşində ol.

Xidmətçi getdi. Ledi Xorbari mücrünün qapağını açdı və ordan dırnaq yeyəsini çıxardı. Sonra oval güzgüdə öz sifətinə bir xeyli baxdı: gah bir qədər pudra vurdu, gah da pomadasını təzələdi…

Ceyn dodaqlarını nifrətlə büzdü və salonun digər sakinlərini nəzərdən keçirtməyə başladı.

Arxadakı kresloda yüksək təbəqəyə mənsub olan ledilərlə rastlaşıb, yerini onlara verən bəstəboy əcnəbi oturmuşdu. Toxunma şərflə həddən artıq bürünmüş bu adam, deyəsən, yuxulayırdı. Ceynin diqqətli baxışları, görünür, onu təşvişə saldı. O, Ceynə baxdı və təzədən gözlərini yumdu.

Onunla yanaşı tamamilə hörmət doğuran çalsaçlı bir kişi oturmuşdu. Onun dizləri üstə içində fleyta olan açıq futlyar var idi, kişi məxmər parçayla aləti sevə-sevə silirdi. Məzəliydi, o musiqiçidən çox, vəkilə, ya da həkimə oxşayırdı.

Bir qədər arxada iki fransız oturmuşdu: biri saqqallı idi, artıq orta yaşı keçmişdi, digəri, daha cavan olan isə yəqin ki, onun oğlu idi. Onlar qızğınlıqla danışaraq və söhbətlərini daha qızğın işarələrlə müşayiət edərək vaxtı qısaldırdılar.

Amma Ceynin diqqətini mavi köynəkli, nəyə görəsə baxmaq istəmədiyi sərnişin daha çox çəkirdi.

“Belə həyəcanlanmaq səfehlikdir, mənasızdır, elə bil, on yeddi yaşım var!” – Ceyn möhkəm hiddətlənərək özünü məzəmmət etdi.

Onun nələr hiss etdiyini başa düşən mavi köynəkli Norman Qeyl isə düşünürdü: “Amma o necə də gözəl qızdır!